# XATİRƏ BULAĞI

**Vətən uğrunda canını fəda edib şəhidlik zirvəsinə yüksələn mərd oğullarımızın adı əziz tutulur və daima hörmətlə yad ediləcəkdir. Belə oğullardan biri də Fikrət Hikmət oğlu Zeynalovdur.**

Fikrət Hacıqabul rayonunun Rəncbər kəndində anadan olmuş, burada böyüyüb boya-başa çatmış, İkinci Vətən müharibəsinə də bu kənddən yola düşmüşdü. Rəncbər kəndinin camaatı ağır döyüşlərdə şəhadətə yüksələn Fikrətin adına xatirə bulağı inşa etmişlər. Şəhidin doğum günündə xatirə bulağının açılış mərasimi oldu. Mərasimdə Hacıqabul Rayon İcra Hakimiyyətinin nümayəndələri, YAP Hacıqabul rayon təşkilatının rəhbərliyi, rayonun idarə və müəssisə rəhbərləri, şəhidin yaxınları, qazilər, kənd camaatı, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Mərasim iştirakçıları şəhidin məzarını ziyarət edib ruhuna dualar oxudular.

Dövlət Himnimizin sədaları altında xatirə bulağının açılışı oldu. Kənd ziyalıları, şəhidin valideynləri şəhadətə yüksələn vətən oğullarının xatirəsini daim əziz tutan dövlət başçımız, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Rəncbər kənd camaatı adından öz təşəkkürlərini bildirdilər.

**Tofiq HÜSEYN,**
**"Respublika".**



Respublika.- 16 yanvar.- 2022- ci il.- S. 5.